# Pandemiya dövründə təhsil

Yanvarın 30-da Təhsil naziri Emin Əmrullayev rəsmi "Facebook" səhifəsi üzərindən "Pandemiya dövründə təhsil" mövzusunda təhsil ictimaiyyətini maraqlandıran çoxsaylı sualları cavablandırıb.

Təhsil ictimaiyyətinin böyük marağına səbəb olan bu format təhsil sahəsinin bugünkü reallıqlar zəminində cəmiyyətimiz üçün nə qədər əhəmiyyət daşıdığını bir daha əyani nümayiş etdirdi. Pandemiya dövrünün təhsil sistemimiz üçün yaratdığı problemlər, onların həlli yolları və üzə çıxardığı yeni imkanlar - məktəblərin açılması, qiymətləndirmələr, sertifikasiya, təhsil haqları, müəllimlərin işə qəbulu, yerlərdə tədrisin təşkili xüsusiyyətləri və s. kimi çoxsaylı suallara cavablar axtarıldı.

⇨Ardı səh.6

# Pandemiya dövründə təhsil

## Təhsil naziri rəsmi "Facebook" səhifəsi üzərindən təhsil ictimaiyyətini maraqlandıran çoxsaylı sualları cavablandırıb

⇦ Əvvəli səh.1

Məktəblərin yenidən açılması məsələsinə toxunan Təhsil naziri qeyd edib ki, fevralın 15-ə qədər ənənəvi təhsilə qismən də olsa, qayıtmağa çalışılır. Nazir bildirib ki, dövlət və özəl olmasından asılı olmayaraq, təhsil eyni qaydada təşkil edilir: "Bölgələrdə siniflərdə 1.5 metr məsafə qorunmaqla, bütün şagirdlər məktəbə gələ bilirsə, bu halda təhsili həftədə 5 gün formatına qaytarırıq. Daha sonra növbəti həftədəki dinamikadan asılı olaraq çalışacağıq ki, qısa zamanda - fevralın 15-ə qədər məktəblər ənənəvi təhsilə qismən də olsa, qaytarılsın".

Nazir bağçaların açılması ilə bağlı suallara cavabında qeyd edib ki, bağçaların fevralın 15-ə qədər açılacağına ümidlər var: "Bağçaların birinci mərhələdə açılmamasının səbəbi odur ki, bu barədə qərar verəndə yoluxma sayı hələ yuxarı idi. Saylarda azalmalar var. Yəqin növbəti iş həftəsində müəyyən qərarlar verilə bilər".

Təhsil naziri Emin Əmrullayev bəzi məktəblərdə pandemiya şəraitində yer probleminin olmadığını bildirib: "Müəyyən mənada uşaqların 5 gün ərzində dərsə gəlməsini təmin etmək olar. Bəzi hallarda isə xüsusilə, Abşeron rayonunun Xırdalan qəsəbəsində, Masazırda, Bakının ətraf kənd və qəsəbələrində kifayət qədər sıx məktəblər var ki, bu məktəblərdə şagird həddindən çoxdur. Belə məktəblərdə məcbur qalıb təhsili 6 günə keçirə bilirik. Çünki sıxlıq imkan vermir, 5 gün edək. Düzdür, yalnız ibtidai təhsil alanlar məktəbə gələndə, sıxlıq o qədər də böyük olmur. Amma V-IX siniflər məktəbə qayıtdıqdan sonra sıxlıq olacaq. Operativ Qərargahdan olan həmkarlarımızla birgə müzakirə aparıb, qərar verəcəyik. Yaxın günlərdə valideynlər bununla bağlı məlumat alacaqlar. Düşünürük ki, bir həftə əvvəl övladlarının dərsə getməsi ilə bağlı məlumatlı olmalıdırlar. Növbəti həftə bununla bağlı açıqlamalar veriləcək".

Təhsil işçilərinin sertifikasiya ilə bağlı suallarını cavablandıran nazir qeyd edib ki, böyük ehtimalla pandemiya dövründə sertifikasiya olmayacaq: "Sertifikasiyanın keçirilməsini istəyirik və düşünürük, amma yaxın 6 ay ərzində yox. İlin ikinci yarısı isə situasiyadan asılı olaraq qərar veriləcək".

Təhsil naziri Vətən müharibəsində şəhid olanların yaxın qohumlarının təhsil haqqının ödənildiyini də deyib. Bildirib ki, 35 nəfər şəhid ailəsi üzvü təhsil haqqının ödənilməsi ilə bağlı müraciət edib, onların müraciətləri müsbət cavablandırılıb.

Emin Əmrullayev şagirdlərin biliklərinin qiymətləndirilməsi məsələsinə də toxunub: "Təbii ki, qiymətləndirmənin dürüst olması pedaqoji fəaliyyətin, təhsilin ən vacib prinsiplərindən biridir. Valideyn, müəllim və şagird tərəfdən dürüstlük prinsipial amildir. İnanıram ki, bunu hamı başa düşür. Pandemiya şəraitində şagirdə kömək etmək, qiymətini bir qədər yuxarı qaldırmaq onun ümumi gələcək həyatını, rifahını dəyişmir. İstərdim ki, bunu edən şəxslər - şagird, müəllim, həm də valideynlər məsələyə mənəvi tərəfdən baxsınlar. Bu, öz-özünü aldatmaqdır. Növbəti tədris ilindən qiymətləndirmələrlə bağlı hansısa dəyişikliklərə getməyin mümkün olduğunu düşünürəm".

Təhsil naziri onu da vurğulayıb ki, distant təhsilin qanunvericilik normaları müəyyən oluna bilər. Belə ki, hazırda "Ali təhsil haqqında" Qanun layihəsi üzrə müzakirələr aparılır. Bu müzakirələr zamanı distant təhsil də diqqətdə saxlanılır.

Tam əminliklə bildirmək olar ki, təhsil ictimaiyyəti bu tədbirdə pandemiya dövrünün təhsildə yaratdığı bir çox sualların cavabını ala bildi. İctimai fikrə hesablanmış bu gözəl təşəbbüs həm sualların rəngarəngliyi, həm də aktuallığı ilə geniş auditoriya qazandı.

**Oruc MUSTAFAYEV**

Azərbaycan müəllimi.- 2021.- 5 fevral.- S.1; 6.